# Hərbçilərimizin uğurlu əməliyyatları davam edir

Cəbhədə vəziyyət gərgin olaraq qalır. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib. Bütün cəbhəboyu gərgin döyüşlər davam edir.

* * *

Oktyabrın 3-də gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv artilleriya atəşinə tutulub. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri artilleriya atəşinə tutulur.

Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin hərbi texnikasına sarsıdıcı zərbələrin endirilməsini əks etdirən yeni görüntülər paylaşıb. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoda oktyabrın 3-də səhər döyüşləri zamanı bölmələrimiz tərəfindən düşmənin hərbi texnikasına sarsıdıcı zərbələrin endirilməsi əksini tapıb.







* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin ağır itkilər verməsini əks etdirən yeni görüntüləri paylaşıb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoda düşmənin bir neçə tankının bölmələrimiz tərəfindən məhv edilərək sıradan çıxarılmasına dair görüntülər yer alıb.

* * *

Azərbaycan Ordusu qarşısında aciz qalan düşmən silah-sursatını, döyüş texnikalarını ataraq və döyüş mövqelərini tərk edərək qaçır.

AZƏRTAC xəbər verir ki, hərbçilərimizin uğurlu əməliyyatı nəticəsində düşmənin daha bir neçə hərbi texnikası - 4 ədəd “KAMAZ” və 1 ədəd “QAZ” markalı avtomobillər qənimət kimi ələ keçirilib. Avtomobillərin içərisində erməni əsgərlərinə məxsus geyimlər, müxtəlif ləvazimatlar, rabitə və digər mühüm hərbi vasitələr aşkar edilib. Hərbi texnikaların hamısı işlək vəziyyətdədir.

Qeyd edək ki, daha əvvəl də Ermənistan ordusunun bir neçə hərbi maşınını qənimət olaraq ələ keçirilmişdi.

Azərbaycan.- 2020.-4 oktyabr.- S.5.